Aprelin 10-da Təhsil Nazirliyi, Azərbaycan Dillər Universiteti, Avropa Təhsil Hüququ və Siyasəti Assosiasiyasının birgə təşkilatçılığı ilə qeyd edilən təhsil müəssisəsində “Təhsildə keyfiyyətin təminatı: tələblər və zərurətlər” mövzusunda beynəlxalq konfrans keçiriləcək.

Ölkəmizdə Boloniya prosesinin ikinci mərhələsinin tətbiqinə və qazanılmış təcrübəyə həsr olunmuş beynəlxalq konfransda təhsil naziri Misir Mərdanov, Azərbaycan Dillər Universitetinin rektoru Səməd Seyidov, Belçikanın Universitetlər üzrə dövlət komissarı, Avropa Təhsil Hüququ və Siyasəti Assosiasiyasının prezidenti, YUNESKO-nun təhsil qanunu üzrə nümayəndəsi Jan De Qroof, Türkiyə Respublikasının ölkəmizdəki təhsil müşaviri Səlahəttin Dikmən, ABŞ-ın Fulbrayt təqaüdçüsü Alison Mandaville və başqalarının məruzə ilə çıxış etməsi nəzərdə tutulub.

Konfransın işində Təhsil Nazirliyinin şöbə müdirləri, dövlət və özəl ali məktəblərin rektorları, eləcə də ABŞ, Türkiyə və Belçikanı təmsil edən nümayəndələr iştirak edəcək.